# AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT GÖMRÜK KOMİTƏSİ
# <<AZƏRTERMİNALKOMPLEKS>> BİRLİYİ

AZ 1039, Bakı şəhəri,
Sabunçu rayonu, Maştağa qəsəbəsi,
Zabrat-Maştağa şossesi, sol kənar, 3

Tel.:(+99412) 525-97-28
Faks: (99412) 525-97-83
E-mail: terminal.umumi.shobe@gmail.com


«09» sentyabr 2022-ci il

№ 2300-030/002-24/000520

**"Finest Tobacco" MMC-nin**
**baş direktoru Orxan İsmayılova**
**Ünvan: (AZ2016) Gəncə şəhəri,**
**Ozan küçəsi, ev 42**

"Azərterminalkompleks" Birliyinə ünvanladığınız teleqramınıza cavab olaraq bildirmək istəyirik ki, aksiz markası olmadan və ya saxta aksiz markası ilə markalanmış məhsulların satışı faktlarının aşkar olunması istiqamətində nəzarət tədbirləri davam etdirilərək, qanun pozuntusu hallarına yol vermiş şəxslərə qarşı qanunvericilik çərçivəsində sərt tədbirlər görülür. Aksiz markası olmadan və ya saxta aksiz markası ilə markalanmış məhsulları almaqla istehlakçı keyfiyyəti, istehsal və saxlanma şəraiti bəlli olmayan və sağlamlıq üçün zərərli məhsullarla üzləşmə təhlükəsi ilə qarşılaşır, eyni zamanda aksizsiz məhsulların qaçaqmalçılığının və istehlak bazarında saxta məhsulların satışının genişlənməsinə və dövlət büdcəsinin gəlirlərdən məhrum olmasına şərait yaradır.

Məlumat üçün bildirmək istəyirik ki, aksiz tutulan mallara, o cümlədən idxal mallarına aksiz markalarının tətbiqi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 8 yanvar 2001-ci il tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş Qaydalara əsasən tənzimlənir. Aksizsiz tütün məmulatlarının gömrük hərraclarına çıxarılmasına və satışına yol verilmir. Aksiz markası olmayan və ya saxta aksiz markası ilə markalanmış məhsullar Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qaydalarına uyğun olaraq məhkəmənin qərarına əsasən məhv edilir.

**Direktorun birinci müavini** **Zeynal Tarquliyev**

İcraçı: Elçin İsmayılov
Tel: (012) 525-93-87 (3547)